**Şanlı zəfərimizlə başa çatan Vətən müharibəsində cənnətməkan yurd yerimiz olan Qarabağın yağı pəncəsindən xilasında Lerik rayonunun Hovil kəndində dünyaya göz açan İmaməli Elman oğlu İbrahimov da böyük hünər göstərdi. Canından artıq sevdiyi doğma Azərbaycanın ərazi bütövlüyünün bərpası yolunda uca və müqəddəs şəhidlik zirvəsini fəth edəndə ömrünün ən gözəl, şirin cağını - 25-ci ilini yaşayırdı. Fəqət, həyat yolu qısa oldu, Vətəni, xalqı üçün elə bir fədakarlıq göstərdi ki, paklıq, saflıq dünyasına dönərək əbədi olaraq milyonların ürəyinə köçdü.**



# Bir Vətən sevdalısının hünər dolu ömür yolu

Vətən naminə yaşamaq İmaməlinin taleyinə yazılmışdı. Həm də düzlük, halallıq və qurub-yaratmaq vurğunu olan atası Elman kişinin el-obanın sevincini, ağrı-acısını ürəyində yaşatmaqla pillə-pillə ucaldığını görür. İnsanlığın zinəti sayılan atanın bu munis dəyərləri oğlunu Vətəninə daha sıx bağlayır. Odur ki, orta məktəbi bitirən İmaməlinin birinci amalı xalqına fayda vermək olur. Təmiz, ulu duyğularla müstəqil həyata qədəm qoyan yeniyetmə oğlanı gördüyü işlər tez bir zamanda insanlar arasında mötəbər edir. Halal əməyi, müqəddəs arzuları, xeyirxah əməlləri ilə başqalarına işıq olur, özü isə erməni dığalarının əsarətində qalan Qarabağın ağrılarına dözə bilmir. 2013-cü ildə Vətənin daşına, torpağına, havasına, suyuna qurban getməyə hazıram deyib, düşməndən qisas almaq məqsədilə həqiqi hərbi xidmətə gedir.

İmaməli ön xətdəki hərbi hissələrin birində nümunəvi qulluğu ilə seçilir. Lap kiçik yaşlardan qəlbinə hakim kəsilən Vətən sevgisi, torpaq məhəbbəti onu əsgərlərin, komandirlərin yanında başıuca edir. Cəsarəti, səmimiyyəti, saflığı da öz yerində. Həmişə Qarabağın taleyini düşünən igid əsgər bütün təlimlər zamanı yüksək rəşadət, şücaət göstərir, hərbin sirlərinə mükəmməl yiyələnir. Beləcə də köksündə əsl qəhrəman ürəyi daşıyan İmaməli yağı düşmənlə Vətənin haqq işi uğrunda səngərə, döyüşə hazırlaşır...

İmaməli Vətən qarşısında borcunu verib doğma kəndinə qayıdır. Həyata ağıllı nəzərlərlə baxır, elin, yurdun mənafeyi naminə çalışır. Bu saf ürəkli cavan oğlanı hamı sevir, onun mərdliyinə, insanpərvərliyinə qibtə edirlər. Bütün bu sevgilər içində İmaməli isə Vətən torpaqlarını azad görmək arzusu ilə yaşayır. Ürəyindəki istək onu yenidən ordu sıralarına qaytarır. İmtahan və təlimlərdən uğurla keçib MAXE kimi cəbhə bölgəsinə yollanır. Nümunəvi xidməti ilə fərqlənir, həm də əsgər yoldaşlarına təlqin edir ki, Vətəni, torpağını qoruması, yolunda canından keçməyi hər bir övlad özünə şərəf saymalıdır.

27 sentyabr 2020-ci il tarixdə Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək Azərbaycan Ordusunun cəbhəboyu yerləşən mövqelərini, yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar, müxtəlif artilleriya qurğulardan intensiv atəşə tutur. Azərbaycan Ordusu əks-hücum əməliyyatlarına başlayır. Canında vətənpərvərlik, yurd sevgisi qaynayan İmaməli ilk gündən düşmənlə ölüm-dirim savaşına girir və Vətən torpağının hər qarışı naminə son damla qanına qədər döyüşəcəyinə and içir. Bir-birindən ağır müharibə meydanlarında erməni dığaları igid Vətən oğullarının sarsıdıcı zərbələri qarşısında dayana bilmirlər. İtki verə-verə döyüş mövqelərini tərk edərək qaçırlar. Hər dəfə azad olan torpaqları görəndə İmaməlinin qollarına yeni güc gəlir, qələbələr naminə heç nədən qorxmadan irəli gedir. Cəbrayıldan Laçına qədər şərəfli bir döyüş yolu keçir. Düşmən neçə-neçə savaşın əsl qəhrəmanı olan kiçik çavuş İmaməlinin ürəyini noyabrın 8-də Laçında nişan alır. İgidin şəhadəti Azərbaycanın şanlı qələbəsi olur. Bununla İmaməli böyük bir xalqın, millətin qürur yerinə çevrilir. Dövlət də öz qəhrəman oğlunu şərəfli ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", Cəbrayılın, Qubadlının, Laçının azad olmasına görə medalları ilə təltif edir.

***Zəfər ORUCOĞLU,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

Azərbaycan.- 2021.- 5 sentyabr.- S.4.